**UOT 32:93/94**

**İLKİN ƏHMƏDZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**diplomatd325@gmail.com**

# BEYNƏLXALQ TERRORİZMLƏ SİSTEMLİ MÜBARİZƏ ZAMANIN TƏLƏBİDİR

DOI: https://doi.org/10.36719/2708-065X/106/240-246

*XX əsrin sonlarından etibarən beynəlxalq münasibətlər öz inkişafında yeni mərhələyə qədəm qoydu. Soyuq müharibə başa çatsa da, beynəlxalq aləmdə qarşıdurmadan əməkdaşlığa keçilməsinin ömrü qısa oldu. Yeni beynəlxalq şərait özü ilə ciddi problemlər gətirdi. Dünya nizamında tarazlığın pozulması ayrı-ayrı dövlətlərin hegemonluq uğrunda mübarizəsini şərtləəndirdi və buna etiraz öz ifadəsini terrorizmdə tapdı. ABŞ-ın qlobal gücə çevrilməsi və islam dünyasına qarşı reallaşdıtrmağa çalışdığı layihələrə cavab reaksiyası 2001-ci il 11 sentyabr terror aktları oldu. ABŞ-ın rəhbərliyi altında yaradılan Anti-terror Koalisiyasının beynəlxalq terrorizmə qarşı başladığı mübarizə hazırda da davam etməkdədir. Qloballaşma prosesləri dərinləşdikcə terrorçuluğun formaları dəyişir, mahiyyət və məzmunca mürəkkəbləşir ki, belə şəraitdə ayrı-ayrı və ya qrufp şəklində dövlətlərin ona qarşı mübarizəsi istənilən səmərəni vermir. Beynəlxalq terrorizmlə mübarizədə istənilən nəticənin əldə olunmaması bu mübarizənin sistemsiz şəkildə və fərqli məqsədlərə uyğun olaraq aparılmasındadır.*

*Məqalədə ümumplanet miqyasında real təhlükəyə çevrilmiş beynəlxalq terrorizmlə mübarizənin aktual problemləri təhlil edilir və bu mübarizənin səmərəliliyinə təsir göstərə bilən amillərin səciyyəsi verilir.*

*Açar sözlər:* ABŞ-da 2001-ci il 11 sentyabr hadisələri, qloballlaşma, beynəlxalq terrorizm, anti-terror fəaliyyəti, dövrləşməsi, terrorizmin mənalandırılması, fərqli maraq və məqsədlər, hibrid müharibə, dövlət terrorizmi.

***Giriş.*** Beynəlxalq terrorizm tarixi köklərinə, məna və mahiyyətinə, çoxsaylı müxtəlif səbəblərinə və müxtəlif təzahür formalarına baxmayaraq bu anlayış altında qorxu, təhlükə, vahimə, ölümlər, qan tökülməsi və s. başa düşülür. Belə növ müxtəlifliyi və təzahür formalarının spesifik özəlliyi bu fenomenə qarşı mübarizədə həm dünya birliyinin, həm də ayrı-ayrı dövlətlərin və onların hüquq-mühafizə orqanlarının işini kifayət qədər mürəkkəbləşdirir. Məhz buna görə də antiterror əməliyyatlarını sistemli şəkildə həyata keçirmək zərurəti yaranır. Yaranmış şəraitdə anti-terror fəaliyyətinin bütün istiqamətlərinin və təzahürlərinin öyrənilməsi ona qarşı mübarizədə ümumi strategiyanın hazırlanmasına imkan vermiş olar. Azərbaycan Prezidenti İ. Əliyev 2017-ci il noyabrın 17-də Parisdə çıxış edərkən diqqəti terror aktlarının ümumbəşəri təhlükə xarakteri almasına yönəldərək demişdi ki, terror aktı heç bir ölkənin ondan sığorta olunmadığını göstərdi. Bu bəla ilə mübarizə o zaman səmərəli olacaqdır ki, dünya ictimaiyyəti bu təhlükəyə qarşı birləşsin və birgə səylərlə bu bəlaya qarşı mübarizə aparmaq mümkün olsun. Məhz buna görə də Azərbaycan Ermənistanın terror aktlarından əziyyət çəkən bir ölkə kimi beynəlxalq terrora qarşı mübarizədə mühüm rol oynamaqda davam etməkdədir (7).

***Əsas hissə.*** Tədqiqat prosesinin gedişində toplanmış fakt və materialların elmi-siyasi və beynəlxalq hüquqi müstəvidə təhlili bizə dünya birliyi və dövlətlərin anti-terror fəaliyyətini iki mərhələyə bölməyə imkan verir, baxmayaraq ki, həmin mərhələlərin hər birini özəlliyi baxımından daha kiçik dövrlərə bölmək mümkündür. Fikrimizcə:

- birinci mərhələ kimi ABŞ-da 2001-ci il 11 sentyabr faciələrinə qədərki terror aktları ilə bağlı hadisələr götürülməlidir. Bu mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində bir sıra ümumi xarakterli siyasi-hüquqi və təşkilati mexanizmlər yaradılmış və təkmilləşdirilmişdir. Belə ki, əvvəlcə Millətlər Cəmiyyəti, XX əsrin 60-cı illərindən etibarən BMT Təhlükəsizlik Şurası və Avropa İttifaqı, habelə digər regional təşkilatlar əks-terrorçuluq fəaliyyəti ilə bağlı praktiki tədbirlərin həyata keçirilməsini nəzərdə tutan bir sıra siyasi-hüquqi sənədlər, qətnamə və bəyənnamələr qəbul etmişdilər ki, bunlarda terrorçuluğun müxtəlif formaları ittiham olunur və dünya dövlətləri bu ciddi təhlükə-

yə qarşı əlaqəli şəkildə mübarizəyə çağrılırdı. Beynəlxalq terrorizmin dünya birliyinə yaratdığı qlobal təhlükəni də ilk olaraq ABŞ etiraf etmişdi. ABŞ prezidentlərindən B.Klinton terrorçuluğu öz ölkəsinin dünyada üzləşdiyi ən təhlükəli problem adlandırmış və qeyd etmişdi ki, geriyə baxarkən görürük ki, XX əsrin sonlarında ən geniş yayılmış müharibə formalarından biri öhdəsindən gəlinməsi mümkün olmayan terrorizmdir.

- ikinci mərhələ kimi 11 sentyabr hadisələrindən sonra başlayan, az və ya çox dərəcədə sistemli və beynəlxalq hüquqi planda əlaqəli xarakter daşıyan mübarizə götürülməlidir. Çünki məhz bu mərhələdə beynəlxalq terrorizmə qarşı daha sistemli, məqsədyönlü və koordinasiyalı mübarizə başlamış, dünya dövlətlərinin BMT çərçivəsində razılaşdırılmış mübarizə birliyinin yaradılmasına cəhd olunmuş və bu birliyin rəmzi kimi BMT-nin Əks-terrorçuluq üzrə Komitəsi yaradılmışdır. Fikrimizcə, bu beynəlxalq antiterror koalisiyasının yaradılması istiqamətində ilk addım hesab edilməlidir.

Məhz BMT-nin Əks-terrorçuluq üzrə Komitəsində təmsil olunan dövlətlərin silahlı qüvvələrinin, habelə təhlükəsizlik və hüquq-mühafizə orqanlarının fəal iştirakı ilə terrorizmə qarşı mübarizə tədricən qlobal miqyas almağa başlamış, bu qlobal təhlükəyə qarşı davamlı və genişmiqyaslı əməliyyatlara start verilmişdir. Göründüyü kimi, məhz 11 sentyabr hadisələrindən sonra beynəlxalq terrorçuluğa qarşı başlanan mübarizənin ikinci mərhələsində universal xarakterli siyasi və hüquqi aktlar qəbul edilmiş və praktiki baxımdan beynəlxalq terrorizmə qarşı sistemli və davamlı strategiyanın reallaşdırılmasına başlanmışdır. Dünya siyasi fikrinin nümayəndələri, qlobal və milli kütləvi informasiya vasitələri terrorçuluğa qarşı mübarizənin bu mərhələsini yeni eranın başlanğıcı kimi qiymətləndirməkdə səhv etmirdilər. Bəs səbəb nədir ki, qlobal səviyyədə həyata keçirilən tədbirlərə baxmayaraq, 2001-2024-cü illər ərzində Rusiyada və postsovet məkanının digər ölkələrində, habelə ABŞ, Türkiyə, İran, Əfqanıstan, Suriya, Böyük Britaniya, Fransa, Səudiyyə Ərəbistanı, Ukrayna və s. ölkələrdə yüzlərlə insanlar terror aktlarının qurbanına və zorakılığın hədəflərinə çevrilmişdilər?! Belə vəziyyət bir tərəfdən antiterror koalisiyasının beynəlxalq terrorizmə qarşı apardığı mübarizənin səmərəsizliyini göstərirsə, digər tərəfdən bu mübarizədə qarşıya qoyulan məqsədləri həyata keçirmək üçün zorakılıq metodlarından müxtəlif üsullarla istifadə hallarının kütləvi xarakter aldığını göstərir (13). Görünən odur ki, terrorizmə qarşı mübarizənin sistemli və sistem xarakterli olmasına hələ onilliklər lazım gələcəkdir.

Müasir beynəlxalq hüquq normalarından çıxış etsək, insan hüquqlarına hörmət, demokratik prinsiplərə və dəyərlərə əməl edilməsi elə ali normalardır ki, bunlar beynəlxalq hüququn təməl daşları hesab edilirlər. Bu prinsiplərin mütləqliyi “güc” anlayışına yer qoymurdu, amma praktikada əksi baş verdi, zorakılıq beynəlxalq status qazanmağa başladı, ABŞ-ın timsalında təhlükəsizliyin birtərəfli qaydada təmin olunması straategiyası və bunun ilk növbədə başı bəlalı Yaxın Şərq regionunda "Böyük Orta Şərq layihəsi" adı altında reallaşdırılmağa başlaması çox tezliklə öz fəsadlarını göstərməyə başladı, terrorçuluğa qarşı mübarizə adı altında terror siyasətinin yeridilməsinin acı nəticələrini həm ABŞ yaşadı, həm də müasir dünya yaşamaqda davam etməkdədir. Yaranmış şəraitdə beynəlxalq təhlükəsizliyin təmin edilməsi adı altında BMT, ATƏT, NATO, AŞ, Aİ, MDB, İƏT və s. təşkilatların fəaliyyətini əlaqələndirmək zərurəti meydana çıxdı, əslində bu beynəlxalq təhdidlərə qarşı sistemli mübarizə aparmaq cəhdi idi ki, elə ciddi nəticələrə gətirib çıxarmadı. 1999-cu ilin noyabrında, ATƏT-in İstanbul Zirvə toplantısında qəbul edilən Avropa Təhlükəsizlik Xartiyası terrorizmi, mütəşəkkil cinayətkarlığı, zorakılığı, narkotiklərin qanunsuz dövriyyəsini, ekoloji problemləri Avropada və dünyada sülhə başlıca təhlükə kimi qəbul etməsinə baxmayaraq bu təşəbbüs də çağırış kimi qaldı (1).

Fikrimizcə, beynəlxalq terrorizmə qarşı mübarizənin səmərəliliyi və onun yaratdığı təhdidlərə qarşı sistemli şəkildə mübarizənin təşkili ilk növbədə bu anlayışın mahiyyəti və necə mənalandırılması ilə bağlıdır. Haqqında geniş şəkildə deyildiyi və yazıldığı üçün terrorizm anlayışı ilə bağlı yığcam təhlillə kifayətlənəcəyik. Terrorizmin yığcam tərifinin verilməsi mümkün olsa da, bu problemin tam şəkkildə əhatə olunması demək olmayacaqdır. Tədqiqatçılar hamılıqla qəbul olunmuş tərifin verilməsini ilk növbədə onun səbəblərinin müəyyənləşdirilməsi və təhlil olunması ilə bağlayırlar. Belə səbəblər kimi, идеоложи, дини вя етник нифрят əsas götürülsə də, iqtisadi amillərin rolunu xüsusi qeyd etmək lazımdır. Məhz bununla əlaqədar olaraq terrorçuluq anlayışına 1936-1981-ci illər arasındakı dövrdə 109 fərqli izah verilmişdir ki, bunlarin ümumi cəhətləri yetərincə çox olsa da, fərqli məqamları da var. ABŞ-da 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra BMT Baş Məclisinin VI

Komitəsi bu anlayışın mənalandırılması baxımından bir sıra təklifləri nəzərdən keçirsə də, indiyədək ümumi qərar qəbul edilməmişdir (3, s.457-458).

Avropa İttifaqı dövlətlərində əhalinin firavan həyat sürməsi bütün qonşu regionlarda qısqanclıqla seyr edilirdi, Avropa rəsmiləri qeyri-qanuni miqrasiyadan tutmuş terrorçuluğa qədər baş verənlərin hamısını məhz bununla bağlayırdılar. Təsadüfi deyildi ki, 1992-1993-cü illər üçün Azərbaycanda sosial sabitliyə nail olmaq məqsədi ilə Avropa İttifaqı 19 mln ekyü vəsait ayırmış və bu vəsait humanitar məqsədlərə sərf olunmuşdu (2). Etnik nifrətin ksenofobiyaya, bunun isə nasizmə gətirib çıxardığını Azərbaycan Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi dövrdə yaşamışdır. Deməli, terrorçuluğun başlıca сябяблярinin müəyyənləşdirilməsi onun ümumi tərifinin verilməsi üçün yetərli deyildir, çünki çoxsaylı digər amillər də mövcuddur. Terrorçuluq müasir beynəlxalq münasibətlərin bir çox iştirakçıları üçün olduqca cəlbedici xarakterə malikdir, habelə asanlıqla konkret nəticələrin əldə edilə bilməsini mümkün edən effektli bir mübarizə vasitəsinə çevrilmişdir. Təsadüfi deyil ki, tədqiqatçılar terrorun belə asan və koordinasiya olunmuş fəaliyyət növü olduğunu müşahidə etməyə başladıqdan sonra, ona qarşı mübarizənin sistemli şəkildə aparılması nəticəsinə gəlmiş və müxtəlif mübarizə mexanizmlərinə dair təklif və tövsiyyələr səsləndirməyə başlamışdılar.

Tədqiqatçılar terror anlayışının fransızca “terreur” anlayışından yarandığını və "qorxutmaq, qorxutmaq, qorxutmaq, mühitdə qorxu yaratmaq" mənaları daşıdığını qeyd edərkən terrorla əlaqəli anlayışların tam təyin olunmasını ən böyük problem kimi ortaya qoyurdular. Çünki, mövcud elmi fikirdə yerindən və oriyentasiyasından asılı olaraq dəyişən terror hadisələrinin “qanuniləşdirilməsi və qeyri-qanuniləşdirilməsi” səyləri yer aldığı üçün, bu anlayışın ümumi qəbul edilmiş tərifinin verilməsi getdikcə daha da çətinləşdirir. Alimlərin terrorizm və terror anlayışlarını fərqləndirməsi və bunlar arasındakı fərqin terrorun bir üsul olaraq siyasi məqsədlər üçün mütəşəkkil, sistemli və davamlı vasitədən istifadə olduğunu müəyyən etməsi bir sıra problemli məsələlərə aydınlıq gətirməyə imkan verir. Qəflətən baş verən hadisələr terror ola bilsə də, terrorun baş verməsi üçün eyni siyasi məqsədə yönəlmiş silsilə terror hadisələrinin olması vacibdir, çünki məhz bu zaman terrorizmin forma və vasitələri özünü açıq şəkildə göstərir (11, s. 59; 12, s.438; 14, s.35; 6, s.105; 9, s.7; 21, s.26-27; 15, s.3; 18, s.87-88; 19, s.95-96) və bunların elmi-nəzəri və beynəlxalq hüquqi təbiətini dəyərləndirmək, habelə ümumiləşdirmələr aparmaq mümkün olur.

Tədqiqat prosesində və elmi-nəzəri araşdırmalar zamanı terrorizmlə bağlı çoxsaylı müəlliflərin əsərləri, məqalələri və dəyərləndirmələri nəzərdən keçirilmiş, ümumi və tipik qiymətləndirmələrin demək olar ki, hamısında "qorxu yaratmaq" sindromunun mərkəzi yer tutduğu müşahidə edilmişdir, doğrudur, bununla yanaşı fərqli baxışlara da rast gəlinmişdir. Türk müəlliflərindən Ü.Acar terrorçuluğu mənalandırarkən aşağıda qeyd edilənlərin nəzərə alınmasının vacibliyini əsas götürürdü: "Terrorun geniş vüsət aldığı və intensivliyinin artdığı dövrlərdə qlobal, regional və ölkə səviyyəsində yaşanan sosial-iqtisadi problemlər arasında sıx əlaqə diqqəti çəkir. Çünki fövqəladə dövrlərdən faydalanan insanlar və ölkələr terrordan da bir növ faydalanır. Kimisi silah satır, kimisi narkotik ticarəti ilə məşğul olur, kimisi qanunun aliliyini, insan haqlarını əsas gətirərək təbii sərvətlərlə zəngin rayonları işğal edir və bu zaman terror təşkilatlarından siyasi təzyiq obyekti kimi istifadə edir"(10, s.117).

Müasir beynəlxalq hüquq terrorçuluğun bütün təzahürlərini hərbi cinayətlərə aid edir. Terrorizmi qeyri-beynəlxalq silahlı münaqişə kimi dəyərləndirməklə bağlı mövqelərə gəlincə, fikrimizcə bu əslində gəlişi gözəl deyilmiş sözdən başqa bir şey deyildir. Radikal qrupların həyata keçirdikləri bütün zorakılıq hərəkətləri terrorizmdir, əgər terrora qarşı mübarizənin sistemliliyindən söhbət gedirsə, onda terrora da hər hansı bir dövlət tərəfindən həyata keçirilən zorakılıq rejimi kimi baxılmalıdır. Əgər beynəlxalq hüquqa istinad etsək, BMT Təhlükəsizlik Şurasının sənədlərində bunun xüsusi olaraq qeyd edildiyini görərik. Bu sənədlərdə qeyd edilir ki, terrorizmlə mübarizə ilk növbədə qanunun aliliyinin möhkəmləndi-rilməsinə xidmət edir və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi yolu ilə başlayır. Bu sahədəki sənədlərin əksəriyyəti nəzarəti gücləndirmək və belə fəaliyyətdə olan qrup və birliklərə qarşı mümkün yumşaqlığı azaltmaq üçün dövlətin məsuliyyətini gücləndirmək məqsədi daşıyır. Terrorizmə qarşı sistemli mübarizə də beynəlxalq hüququn bütün subyektləri arasında əməkdaşlığı bərqərar etməklə, onların fəaliyyətini gücləndirməyi nəzərdə tuturdu. Sistemli mübarizənin dinamik şəkildə aparılması nə zaman isə bu fəaliyyətə sistem xarakteri verəcəkdir.

Praktiki baxımdan beynəlxalq terrorçuluğa qarşı sistemli mübarizənin başlanmasını da ABŞ-da 2001-ci il 11 sentyab hadisələri ilə əlaqələndirmək mümkündür, çünki bu hadisəyə qədər anti-terror fəaliyyəti belə kütləvi xarakter daşımırdı və əsasən, ya fərdi qaydada, ya da kiçik bir dövlət qruplarının koordinasiyalı fəaliyyəti ilə bağlı olurdu. Sentyabrın 11-də baş vermiş terror hadisəsindən sonra ABŞ hökuməti "Əl-Qaidə" terror təşkilatının Əfqanıstanda sığınacaq tapmış üzvlərinin həbs edilməsi üçün Əfqanıstan hökumətinə müraciət etsə də, Əfqanıstan bu sahədə əməkdaşlıqdan birmənalı olaraq imtina etdi ki, bunun nəticəsində BMT-nin məlum qətnamələri meydana gəldi, anti-terror koalisiyası formalaşdı, BMT-nin nəzdində xüsusi Komitə yaradıldı. Göründüyü kimi, Əfqanıstan hökumətinin mövqeyi onun terrorçuluğa fəal dəstək verməsində ittiham olunmasına gətirib çıxardı və Əfqanıstan hökumətinin terror aktına görə məsuliyyət daşıması prezumpsiyasını yaratdı. Belə vəziyyət 2001-ci il oktyabrın 7-də ABŞ-ın rəhbərliyi altında yaradılmış koalisiyanın hərbi əməliyyatlarının başlanmasına hüquqi baxımdan bəraət qazandırdı (5). Məhz bu hadisədən sonra beynəlxalq terrorizmin mənalandırılması və tərifinin verilməsi məsələsi xüsusi aktuallıq qazandı və başlanmış debatlar hal-hazıradək davam edir.

Terrorçuluq anlayışının təfsirinə sovet dövrü ədəbiyyatında da rast gəlinir. Belə ki, 1986-cı ildə çoxcildlik olaraq nəşr edilmiş "Diplomatik lüğət"də terrorizmin səbəbləri kimi millətçilik, irqçilik, aparteizm, şovinizm və soyqırım siyasəti əsas götürülür, bunların dövlətlərin siyasi müstəqilliyi, milli suverenliyi və ərazi bütövlüyünün pozulmasına qarşı yönəldiyi bildirilirdi. Lüğətdə habelə terrorizmin yayılmış müxtəlif forma və növlərinə qarşı beynəlxalq birliyin də apardığı mübarizəyə toxunulur, lakin bu mübarizədə sosializm birliyinin rolu xüsusi olaraq vurğulanır, NATO bloku ölkələrinin yeritdiyi strategiya beynəlxalq terrorizmin başlıca səbəbi kimi göstərilir və birgə mübarizəyə çağırış edilirdi (16, s. 461).

Minilliklərin qovşağından etibarən özünü bariz şəkildə göstərməyə başlayan və başlıca qlobal təhlükələr sırasında yer alan beynəlxalq terrorizm forma dəyişikliyinə məruz qalsa da, məzmunca insanlığı qorxuda saxlamaq mahiyyətini itirməmişdir. Müasir dövrdə dünya ölkələrinin müharibələrdən imtina etməsi tendensiyası getdikcə güclənsə də, müharibələrin artıq adi bir hala çevrildiyini müşahidə etməkdəyik. Nə qədər ki, terrorçuluq, habelə beynəlxalq cinayətkarlığın müxtəlif növləri, narkoticarət, insan alveri, silah satışı və s. kimi hüquqa zidd əməllər mövcud olacaq, müharibələr də davam edəcəkdir, fəqət hibrid müharibə taktikası adı altında. Belə taktikaya müraciət edən dövlətlər bir qayda olaraq bunu regional və beynəlxalq təhlükəsizlik və ya beynəlxalq terrorizmlə mübarizə məsələləri ilə bağlayır və bu zaman BMT NİzamnamƏsinin 2-ci maddəsinin 3-cü və 4-cü bəndlərinə əsaslanırlar. Nizamnamənin 3-cü bəndinə əsasən dünya birliyinin üzvü olan dövlətlər öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət heç bir təhlükəyə məruz qalmasın. 4-cü bəndə əsasən isə dünya birliyinin üzvləri öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər (4, s.6). Məhz bu amildən çıxış edən dövlətlər beynəlxalq terrora qarşı mübarizənin yeni forması olan hibrid müharibə taktikasına keçməyə başladılar ki, tədqiqatçılar isə bu taktikanı beynəlxalq terrorizmə qarşı dövlət terrorizmi kimi qiymətləndirməkdədirlər. Belə müharibələr BMT Nizamnaməsinin qeyd edilən bəndlərinə zidd deyildir (çünki, BMT yarananda belə müharibələr yox idi), ancaq terrorla mübarizədə mümkündür. Hazırda Rusiya Federasiyası Ukraynada, İzrail dövləti isə Fələstində apardıqları müharibələri hibrid münaribə kimi təqdim edir və beynəlxalq terrorizmlə müharibə apardıqlarını bildirirlər.

Fikrimizi əsaslandırmaq üçün daha bir praktiki nümunəni nəzərdən keçirək. İzrail Ali Məhkəməsinin 11 dekabr 2005-ci il tarixli qərarına əsasən "terrorçular qeyri-qanuni kombatantların (müasir beynəlxalq hüquqda "kombatant" anlayışı əlində silah döyüşən əsgəri bildirir, qeyri-kombatant dedikdə isə hərbi xidmətdən tərxis olunmuş və ya mülki şəxs başa düşülür, İzrail məhkəməsi terrorçunun əlində silah olmasını əsas götürərək Fələstinin mülki əhalisini bu kateqoriyaya aid etmir və onlara qarşı soyqırım siyasəti həyata keçirir) (17) üçüncü kateqoriyası hesab edilə bilməzlər, çünki belə bir kateqoriya mövcud deyildir", deməli terrorla mübarizə silahlı mübarizələrin üçüncü kateqoriyası sayıla bilməz, halbuki İzrail dövləti hazırda qeyri-dövlət qrup və ya təşkilatları ilə müharibə aparmaqdadır, bu müharibəni üçüncü kateqoriyalı müharibə hesab etmək olmazsa, onda İzrail Ali Məhkəməsinin müəyyənləşdirdiyi kriteriya necə qiymətləndirilməlidir? Göründüyü kimi, terrorizmin

aydın və hamılıqla qəbul edilmiş təripinin olmaması hər hansı dövlətə və ya subyektə apardığı və ya aparmaq istədiyi müharibəyə anti-terrpor adı verməyə imkan verir. Qərb politoloji fikrinin nümayəndələrindən A.Kamus hesab edirdi ki, hər hansı bir şeyi, daha dəqiq desək hadisə və ya prosesi səhv adlandırmaq bu dünyanın kədərini artırmaqdan (20) başqa bir şey deyildir.

Deməli, terrorizmin ümumi tərifinin verilməsi üçün bütün dünyadakı terrorçu və bu yönümlü təşkilat, qrup və fiziki şəxslərin ümumi siyahısı hazırlanmalı, mahiyyət və məzmunu müəyyənləşdirilməli və yalnız bundan sonra ümumi tərifi hazırlanmalıdır? Problemin çətinlik yaradan başlıca cəhəti ondan ibarətdir ki, müasir beynəlxalq hüquq normalarına görə, ümumi siyahıya salınmalı olan bütün subyektlərin məhkəmə yolu ilə özünü müdafiə etmək və bəraət qazanmaq hüququ vardır. Yaranmış vəziyyətdə istənilən təşkilat, qrup və ya fərdin özünü azadlıq uğrunda mübariz kimi təqdim etmək və tanınmaq imkanı yaranır. Məhz buna görə də beynəlxalq terrorçuluğa qarşı mübarizəni koordinasiyalı və sistemli şəkildə həyata keçirmək lazımdır, bununla belə terrorizmin təzahür formalarının fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

Deməli, artıq bu sahədə hamılıqla qəbul edilməsi mümkün olan addımlar regional səviyyədə atılmaqdadır, baxmayaraq ki, beynəlxalq terrorçuluğun regional təzahürləri heç də ümumi deyil və fərqli xüsusiyyətlərə malikdirlər. Fikrimizcə, Avropa İttifaqı Şurasının 2002-ci il tarixli Çərçivə qərarının 1-ci maddəsinin, habelə "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Şurası Konvensiyası Preambulasının sonuncu paraqrafının bəndlərinə əsasən beynəlxalq terrorçuluq anlayışını aşağıdakı kimi mənalandıra bilərik: "Beynəlxalq terrorçuluq - siyasi, iqtisadi, sosial, dini, mənəvi, mədəni və s. sahələrdə maraqlarını təmin etmək məqsədilə hər hansı bir şəxs, qrup və yaxud müvafiq orqanların əməkdaşları vasitəsilə dövlət tərəfindən ictimai təhlükəsizliyin pozulması, əhalinin vahimə içərisində saxlanılması, dövlət hakimiyyəti orqanlarının və beynəlxalq təşkilatların hərəkət və ya hərəkətsizlik göstərməyə məcbur edilməsi yolu ilə hər hansı bir ölkənin və ya beynəlxalq təşkilatın fundamental siyasi, konstitusiya, iqtisadi və sosial strukturlarının sabit fəaliyyətinin pozulmasına və yaxud məhvinə yönəldilmiş hərəkətlərin bir neçə dövlətin ərazisində və ya bir neçə dövlətin maraqlarına zərər vura biləcək şəkildə törədilməsi, habelə bu cür hərəkətlərin törədiləcəyi ilə başa çatan bir hədələmədir" (8). Bu tərifin əsas götürülərək ayrı-ayrı əlamətləri məqamları göstərilməklə tamamlanması beynəlxalq terrorizm anlayışının mahiyyətinin ümumiləşdirilməsinə imkan verə bilər. Qeyd edək ki, terrorizm anlayışının Avropa konvensiyasında yer alan, habelə bir çox tədqiqatçılar tərəfindən müsbət qiymətləndirilən əlamətlər praktiki baxımdan aprobasiyadan keçmişdir.

***Nəticə.*** Beynəlxalq terrorizmlə sistemli və koordinasiyalı mübarizənin olduqca aktuallaşdığı müasir dövrdə bu fenomenlə mübarizənin gedişində mühüm universal təşkilat kimi BMT və bir sıra regional qurumlar və dövlətlər çərçivəsində zəngin təcrübə toplansa da, aparılan mübarizənin əhəmiyyətli nəticələrə gətirməməsi göz önündədir. Bu mübarizəyə sistemli xarakter vermək, onu məqsədyönlü şəkildə istiqamətləndirmək və operativ fəaliyyəti təmin etmək bir sıra çətinliklərlə bağlıdır. Başlıca çətinlik terrorizm anlayışının mənalandırılması və bu qlobal təhlükəyə qarşı qlobal həmrəyliyə əsaslanan mübarizənin aparıla bilinməməsindədir. Aparılmış tədqiqat nəticəsində dövlətlərin qütbləşməkdə olduğu müasir dövrdə nəinki anti-terror sisteminin təşkili, hətta terrorçuluğa qarşı sistemli mübarizənin aparılmasının mümkünsüzlüyü nəticəsinə gəlinmişdir. Qismən səmərəli hesab edilən vəziyyət ondan ibarətdir ki, BMT və onun ixtisaslaşmış qurumlarının terrorizmin qarşısının alınması sahəsində fəaliyyəti müəyyən nəticələr verməkdədir. Bəşəriyyəti hədələyən bu qlobal təhlükənin önlənməsinə yönəldilmiş səyləri əks etdirən elə bir mexanizmin hazırlanması vacibdir ki, zamanın tələbləri və çağırışlarına cavab verə bilsin.

Azərbaycan Respublikası Ermənistanın ölkəmizə əsassız ərazi iddiaları zəminində apardığı 30 illik işğalçılıq siyasətinin və terrorçuluq əməllərinin bütün fəsadlarını yaşamış və bu təhlükəyə qarşı davamlı mübarizə aparmış dövlətdir. Təsadüfi deyildir ki, milli diplomatiyamız beynəlxalq terrorizmə qarşı sistemli və məqsədyönlü mübarizədə fəal iştirak edir və belə təhlükələrə qarşı mübarizənin ön sıralarındadır. Beynəlxalq terrorizmə qarşı beynəlxalq və regional səviyyədə aparılan mübarizənin Cənubi Qafqazda real nəticələri Rusiyanın neytrallığı şəraitində, ilk növbədə Azərbaycan, Gürcüstan və Türkiyənin əməkdaşlığında təzahür edir. Belə ki, birgə əməkdaşlıq nəticəsində 2002-ci ildə Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər mühüm cinayətlərlə mübarizə haqqında" sazişin imzalanması və onun sistemli şə-

kildə həyata keçirilməsi beynəlxalq cinayətkarlıqla bağlı bir sıra təhlükələri regiondan uzaqlaşdırdı. Beynəlxalq cinayətkaarlığın müxtəlif formaları ilə mübarizə sahəsində tərəflərin üzərinə ciddi öhdəliklər qoyan bu tarixi sənəd regional təhlükəsizliyin beynəlxalq səviyyədə təmin edilməsinə öz töhfələrini verməkdədir.

ƏDƏBİYYAT


1. ATƏT-in İstanbul Zirvə toplantısı / Azərbaycan qəz., 1999, 18 noyabr.
2. Avropa İttifaqının Azərbaycana humanitar yardımları sosial xarakterlidir / Ayna qəz., 1993, 6 dekabr.
3. Beynəlxalq hüquq. B.: Qanun nəşr., 2002, 752 s.
4. Birləşmiş Millətlər Təşkilatının Nızamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu. BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəliyinin nəşri, s.6.
5. Əfqanıstan müharibəsi. - https://az.wikipedia.org/wiki/%C6%8Ffqan%C4% B1stan_m %C3%B Charib% C9%99si_(2001%E2%80%932021) [15.08.2024].
6. Əhmədov S., Həsənov R. Beynəlxalq terrorizmin yaranma səbəbləri və tipologiyası // Hərbi bilik jurn., 2008, №3, s.100-111.
7. Terrorizm qorxunc bəşəri kabus kimi dünyanın hər yerinə ayaq açır / Azərbaycan qəzeti, 2015, 17 noyabr.
8. "Terrorizmin qarşısının alınması haqqında" Avropa Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Qanunu. - https://e-qanun. az/framework/2580 [15.08.2024].
9. Usubov M. Terrorçuluğun kriminoloji xarakteristikasının xüsusiyyətləri (Azərbaycan Respublikasının məhkəmə-istintaq təcrübəsi əsasında). B.: UniPrint nəşr., 2008, 216 s.
10. Acar Ünal. Paylaşım savaşında terror // Van Yüzüncü Yil Universitesi Sosial Bilimler Enstitusu Dergisi, 2019, kış, Sayı 46 s.117-137.
11. Aktan Gündüz. “Dünyada Terör; Terörizm ve Uluslararası İlişkiler” / Dünyada ve Türkiye’de Terör Konferansı (20-24 Mayıs 2002), TCMB Banknot Matbaası, Ankara, 2002, s.58-60.
12. Andiz Damla. “Aydınlık Yol: Güney Amerika’da Bir Terör Örgütü” // Terörizm İncelemeleri. ASAM Yayınları, Ankara, 2000, Sayısı 13x19 s.438-459.
13. Atilla Sandıklı. Terörle Mücadele Stratejisi Nasıl Olmalıdır? http://www.bilgesam.org/tr/index.php?option=com_content&view=article&id=717:teroerle-muecadele-stratejisi-nasl-olmaldr&catid=122:analizler-guvenlik&Itemid=147 [15.08.2024].
14. Aydin Mehmet Akif. “Terör ve Hukuk”, Türkiye’de Terörizm Dünü, Bugünü, Gelişimi ve Alınması Gereken Tedbirler, Ankara 10-11 Mayıs 2000, Türk Tarih Kurumu Basımevi, Ankara, 2003, s.35-37.
15. Давудова Е. Терроризм, истоки и эволюция, цели и средства. Москва : Наука 2000.
16. Дипломатический словарь, т. 3. Москва: Наука, 1986, с.461.
17. Комбатант. - https://ru.wikipedia.org/wiki/%D0%9A%D 0%BE%D0%BC%D 0%B1% D0%B0%D1%82%D0%B0%D 0%BD%D1%82 [15.08.2024].
18. Кудашов В.И. Терроризм как порождение глобализма // Осмысление глобального мира. Кол. монография. Красноярск: Изд.,ЛИТЕРА-принт, 2007, 176 с.
19. Кулагин Б.М. Международная безопасность. М.: Аспект-Пресс, 2006, 319 с.
20. Практический словарь гуманитарного права. - https://slovar-gumanitarnogo-prava.org/content/ artikle/ 4/terrorizm/ [15.08.2024].
21. Севдималиев Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Б.: İNDİGO, 2011, 504 с.


**ИЛЬКИН АХМЕДЗАДЕ**
*Докторант Бакинского государственного университета*

## СИСТЕМАТИЧЕСКАЯ БОРЬБА С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ – ТРЕБОВАНИЕ ВРЕМЕНИ

С конца XX века международные отношения вступили в новый этап своего развития. Хотя холодная война закончилась, переход от конфронтации к сотрудничеству в международном мире был недолгим. Новые международные условия принесли с собой серьезные пробле-

мы. Нарушение баланса в миропорядке определило борьбу отдельных государств за гегемонию, а протест против него нашел свое выражение в терроризме. Террористические атаки 11 сентября 2001 года стали ответом на превращение США в мировую державу и на проекты, которые они пытались реализовать против исламского мира. Борьба с международным терроризмом, начатая Антитеррористической коалицией, созданной под руководством США, продолжается до сих пор. По мере углубления процессов глобализации изменяются формы терроризма, усложняются его природа и содержание, так что в таких условиях борьба с ним отдельных или групповых государств не дает желаемого эффекта. Неспособность достичь желаемых результатов в борьбе с международным терроризмом связана с тем, что эта борьба ведется бессистемно и по разным целям.

В статье анализируются современные проблемы борьбы с международным терроризмом, ставшим реальной угрозой глобального масштаба, и описываются факторы, которые могут повлиять на эффективность этой борьбы.

*Ключевые слова:* События 11 сентября 2001 г. в США, глобализация, международный терроризм, антитеррористическая деятельность, периодизация, трактовка терроризма, разные интересы и цели, гибридная война, государственный терроризм.

**ILKIN AHMEDZADE**
*Doctoral student of Baku State University*

## SYSTEMATIC FIGHT AGAINST INTERNATIONAL TERRORISM IS A REQUIREMENT OF THE TIME

Since the end of the 20th century, international relations have entered a new stage of their development. Although the Cold War ended, the transition from confrontation to cooperation in the international world was short-lived. The new international conditions brought with them serious problems. The disruption of the balance in the world order determined the struggle of individual states for hegemony, and the protest against it found its expression in terrorism. The terrorist attacks of September 11, 2001 were a response to the rise of the United States as a world power and the projects it was trying to implement against the Islamic world. The fight against international terrorism, initiated by the Anti-Terrorist Coalition created under the leadership of the United States, continues to this day. As globalization processes deepen, the forms of terrorism change, its nature and content become more complex, so that in such conditions the fight against it by individual or group states does not produce the desired effect. The inability to achieve the desired results in the fight against international terrorism is due to the fact that this fight is conducted unsystematically and for different purposes.

The article analyzes modern problems of the fight against international terrorism, which has become a real threat on a global scale, and describes the factors that can influence the effectiveness of this fight.

*Keywords:* The events of September 11, 2001 in the USA, globalization, international terrorism, anti-terrorist activities, periodization, interpretation of terrorism, different interests and goals, hybrid war, state terrorism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 avqust 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktybar 2024-cü il.*
*Rəyçilər: s.e.ü.f.d. Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.*